**Afərin Əli ABBASOVA**
Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının dosenti, psixol.ü.f.d.
E-mail:aferin.abbasova@wcu.edu.az
aferin_2012@hotmail.com
ORCID: 0000-0002-6948-4301

**Yəhya Rza ABDULLALI**
Qərbi Kaspi Universiteti
II kurs magistrant
E-mail: yehya6319@gmail.com
ORCID: 0009-0003-5072-9035

# CİNAYƏTKARIN ŞƏXSİYYƏTİNİN ÖYRƏNİLMƏ SƏVİYYƏLƏRİ VƏ ÜSULLARI

**Xülasə**

Cinayətkarın şəxsiyyətinin öyrənilməsi hüquq psixologiyasının əsas istiqamətlərindən biri hesab edilir. Cinayətkarın şəxsiyyəti xüsusi və fərqli kateqoriya olmaqla özündə müxtəlif xüsusiyyətləri cəmləyir. Həmin xüsusiyyətlərin öyrənilməsi isə öz növbəsində cinayətkarın formalaşmasına kömək edən psixoloji amillərin müəyyən edilməsinə, gələcəkdə formalaşa biləcək cinayətkarın risk amilləri üzrə müəyyən edilməsinə və profilaktik tədbirlərin hazırlanmasına yardımçı ola bilər.

Eyni zamanda cinayətkarın şəxsiyyətinin xüsusiyyətlərin müəyyən edilməsi üçün ilk öncə müəyyən mərhələlər üzrə cinayətkarın şəxsiyyətinin formalaşmasına təsir edən amilləri qruplaşdırmaq zəruridir. Əks halda, məsələyə kompleks yanaşmaq qeyri-mümkün ola bilər. Qeyd olunan məsələnin tədqiqi isə ümumi olaraq sosial, psixoloji, bioloji səviyyədə aparılır. Beləliklə, bütün bunları nəzərə alaraq məqalədə cinayətkarın şəxsiyyətinin öyrənilməsi səviyyə və üsulları təhlil ediləcəkdir.

**Açar sözlər:** Cinayətkar, şəxsiyyət, psixologiya, xarakteristika

**UOT:** 343.95:343.91
**DOİ:** https://doi.org/10.54414/LGUY8246

## Giriş

Cinayətkar bioloji, psixoloji, sosioloji amillərin düzgün şəkildə formalaşmaması, qüsurların sistematik mövcudluğu və onların qarşılıqlı əlaqəsi nəticəsində özünü göstərən insandır. Normal şəxsiyyət də eyni qaydada bioloji, psixoloji, sosioloji amillərin təsiri altında, lakin tam və düzgün vəhdəti şəklində formalaşmış insandır.

Bu mənada həm normal şəxsiyyətin, həm də cinayətkarın formalaşmasını təmin edən amillər demək olar ki, eynidir, yəni bioloji, sosioloji, psixoloji amillərlə şərtlənir, başqa sözlə, daxili və xarici amillərin vəhdəti şəklində özünü göstərir. Buna baxmayaraq onları bir-birindən ayıran əsas məsələ mənfi, ziyanlı, təhlükəli davranış sərgiləməsi və o tip davranış sərgiləməsinə səbəb olan amillərin mövcudluğudur.

Cinayətkar mənfi davranış sərgilədiyini, əxlaqilik prinsipini pozduğu, sosial münasibətləri zədələdiyi üçün şəxsiyyət statusunu itirir. Çünki, sosiumda formalaşan şəxsiyyət sosiumun qaydalarını və ya hüquq normalarını *(hansı ki, onların pozulması da sosiumun normalarının pozulması ilə nəticələnir)* sosiallaşa bilmək üçün pozmamalıdır.

Bütün bunlara baxmayaraq cinayət törət-miş insan cinayət törətməzdən əvvəl normal

şəxsiyyət, qüsurlu şəxsiyyət və ya şəxsiyyətə çevrilməmiş fərd olduğu üçün onu da müəyyən edən xüsusiyyətlər vardır. Eyni zamanda cinayət törətmiş insan şəxsiyyətə aid olan strukturunun pozulması və ya qüsurlu olması ilə şərtlənir. Bu mənada onun da xüsusiyyətlərinin təhlil edilməsi, şəxsiyyət strukturuna münasibətdə araşdırılması və onun da mənfi olmağına baxmayaraq müəyyən şəxsiyyət strukturuna malik olması təəccüblü deyildir.

**Əsas hissə**

Bir insanın cinayətkar olmasına səbəb olan müxtəlif amillər vardır. Qeyd ediləcək amillərin təsiri altında insanlar ya ani olaraq cinayət törədir, yəni cinayətkar xüsusiyyətləri mənimsəyir, ya da zamanla özünü şüurlu və ya qeyri-şüurlu şəkildə cinayətkar olmağa hazırlayır.

Ümumiyyətlə, insan cinayətkar olaraq dünyaya gəlməsə də, onda cinayət törətmək və ya qəddar olmaq, ziyan vermək potensialı mövcuddur. Onların arasında seçim etmək və ya iradəli olaraq mövcud problemlərin təsiri altına düşməmək insanın üzərinə düşür. Doğrudur ki, dövlətin üzərinə də məhz insanların mövcud qəddarlıq potensialını təzahür etdirməsinə imkan yaradan amilləri aradan qaldırmaq düşür. Bu zaman bir sual yaranır. ***İnsanın qəddarlıq potensialını aktivləşdirəcək amillər nələrdir?*** Bu sualının cavabının tapılması isə məhz cinayətkarın şəxsiyyətinin öyrənilməsi ilə bağlıdır.

Ümumiyyətlə, şəxsiyyətin öyrənilməsi üçün tətbiq edilən yanaşma özünü iki növ qrup şəklində göstərir:

- Daxili amillər *(endogen)* - insanın xarici təsirlərə olan reaksiyalarında təzahür edən amillər başa düşülməlidir. Bu zaman insan adətən psixoloji və bəzən də bioloji amillərin təsiri altında kənar qıcıqlandırıcılara reaksiya verir.
- Xarici amillər *(ekzogen)* – onlar daha çox qıcıqlandırıcı funksiyanı həyata keçirir və sosial amillərin təsiri ilə şərtlənir. Həmin amil-lərin təsiri altında hər kəs cinayət törətmir, lakin risk qrupuna daxil olur.

Qeyd olunan amilləri bir nümunədə təsvir edək: *İş yerində işçi rəhbərin təzyiq və alçaldıcı davranışlarına məruz qalır. Rəhbər həmkarlarının gözündə işçini kiçiltmək üçün təhqir edir və onu vacib qərarlardan kənar saxlayır. Zaman keçdikcə işçi işdə daha çox stress və narahatlıq hiss edir, yuxusuz qalır, iş səhvləri artır və psixoloji gərginlik artdıqca həm özünə, həm də digərlərinə qarşı aqressiv reaksiya göstərməyə başlayır.*

İşcisin davranışlarının nəticəsi endogen və ekzogen amillərlə şərtlənir. Belə ki, endogen amil olaraq işci yüksək məsuliyyət və mükəmməllik meyli daşıyır. Eyni zamanda təzyiq və alçaldılma qarşısında emosional olaraq həssasdır, qəzəb və stressi idarə etməkdə çətinlik çəkir. Stressin yüksək səviyyəsi aqressiv reaksiyanı gücləndirir, yuxusuzluq və davamlı gərginlik isə empatiya və sosial davranış qabiliyyətini zəiflədir.

Endogen amillərlə qarşılıqlı şəkildə ekzo-gen amillər də təsir edir. Belə ki, rəhbərin təzyiqi və həmkarların passivliyi işçinin təcrid olunma-sına səbəb olur. İşçi işini itirməkdən qorxur, buna görə də öz müdafiəsini ifadə edə bilmir, maddi və sosial vəziyyət stressi artırır, aqressiv davranışa şərait yaradır.

Bütün ekzogen və endogen amillərin təsiri nəticəsində işcidə deviant davranışlar özünü göstərməyə başlayır. Problemin ağırlıq dərəcəsinə uyğun olaraq reaksiyalar da fərqlənir. İlk öncə aqresiya özünü göstərir. Daha sonra işçiyə olan münasibət mənfi istiqamətdə kəskinləşir və nəticədə işçi zorakı davranışlara əl atır.

Endogen və ekzogen amillər ümumi amillərdir. Lakin, onları daha dəqiq təsnifat əsasında da bölmək olar:

1. Bioloji və fizioloji amillər.

Bioloji və fizioloji amillər öz-özlüyündə bir neçə amillərə bölünür:

- Genetik amillər: Kriminologiyada aparılan bioloji tədqiqatlar sübut edir ki, bır sira genetik amillər cinayi davranış riskini artırır.

Amerikada Juk ailəsinin araşdırılması da bioloji amillərin öyrənilməsi cəhətdən maraq doğurur. Juk ailəsi Maks adında bir adam ilə başlayır. O 18-ci əsrdə dünyaya gəlmiş, içki asılılısı, avtoritar xüsusiyyətli şəxs idi. Onun bir çox övladı olmuş, onlardan bəziləri nigahdan kənar dünyaya gəlmişdir. Daha sonra Maksın oğlu digər bir ailəyə mənsub qız ilə ailə həyatı qurur. Həmin qızın nigahdan kənar bir övladı olur və cinayət zənciri burada başlayır. Həmin

ailəni araşdıran Duqdale adlı alim həmin nəslin 709 üzvünü araşdırmağa başlayar. Nəticədə, onlardan 280 nəfərin işsiz olduğu, 140 nəfərin cinayətkar olduğu, 440 nəfərinin zöhrəvi xəstəliyə düçar olduğu, 50 nəfərinin qeyri-əxlaqi fəaliyyət ilə məşğul olduğu, 40 nəfərinin nigahdan kənar əlaqədə olduğu aşkar edilir *(A.Y. Rəqəmlərin cəminin 709-dan çox olması araşdırmanın yanlış olduğunu demir, çünki, iki fəaliyyət bir şəxsə aid ola bilər)* [7].

- Hormon balansı: Endokrinologiya və kriminologiya elminin kəsişməsində aparılan araşdırmalardan məlum olmuşdur ki, bir sıra təhlükəli davranışların sərgilənməsində hormonların yolu böyükdür.

XX əsrdə həyat yoldaşını biçaqlayaraq öldürən və intihara təşəbbüs edən, buna baxmayaraq məhkəmədə bəraət alan bir şəxsin cinayəti araşdırılır. Məlum olur ki, həmin adam cinayətdən iki ay əvvəldən başlayaraq pəhriz proqramına keçmiş, şəkər, kartof, çörək, qızardılmış yeməklərdən istifadə etməmişdir. Cinayətin törədildiyi gün böyük miqdarda spirtli içki qəbul etmiş, cinayəti törətdikdən sonra hafizəsini itirmişdir. Cinayətdən bir neçə həftə sonra qan testi aparılmış və onun hipoqlikemiya xəstəsi olduğu aşkarlanmışdır. Nəticədə məhkəmə şəxsin qeyri-ixtiyari olaraq hərəkət etdiyi qərarına gəlmiş və şəxs bəraət almışdır [8].

- Sinir sistemi pozuntuları: Beynin ön pay zədələri, epilepsiya, travmatik beyin xəsarətləri emosiyaların idarəsini zəiflədir.

Finas Keys *(Phineas Keyc)* adlı bir dəmir yolu ustası qayaları partlatmaq vəzifəsini həyata keçirirdi. Əvvəlcə partladılmalı olan qayaları qazmalı, əlindəki dəmir çubuqla dinamiti içəri daxil etməli, sonra isə dinamiti partlatmalıydı. Bir gün o, dinamiti çubuqla yerləşdirərkən, qəza nəticəsində dinamit qəfil partladı və 6,5 kq-lıq dəmir çubuq onun çənəsindən daxil olaraq beynin ön hissəsindən çıxdı. Müdaxilə nəticəsində onun həyatı xilas edilsə də, sol gözü görmə qabiliyyətini itirdi. Bütün bunlara baxmayaraq Keys toxuna, eşidə, görə, əllərindən əvvəlki kimi məharətlə istifadə edə, yeriyə bilir, danışıq və dil bacarıqlarında nəzərə çarpacaq dərəcədə pozulma hiss olunmurdu. Lakin zaman keçdikcə ətrafdakı insanlar onun şəxsiyyətini deformasiyaya uğradığını bildirdilər. Qəzadan əvvəl məsuliyyətli, mötədil, enerjili, çalışqan və hazırcavab bir insan olan Keys qəzadan sonra başqa adama çevrilmişdi. O, kobud, qeyri-etik, təhqiramiz, dözümsüz, gələcək üçün ardıcıl planı olmayan, heç bir məsləhətə qulaq asa bilməyən, heç bir məsələdə əsaslı qərarlar qəbul edə bilməyən bir insana çevrilmişdi. On iki il sonra həyatını itirən Keysin ailəsinin razılığı ilə beyni götürülərək araşdırma predmeti oldu. Nəticədə onun ön beynində zədələnmə olduğu və nəticədə sosial normaları görməzdən gəldiyi, heyvani istəklər ilə insani bacarıqlar arasında əlaqənin itdiyi müəyyən edildi və ön beynin bu funksiyaları həyata keçirmədə önəmli rolu olduğu aşkar edildi [6].

- Psixoaktiv maddələr: Alkoqol və narkotik vasitələr insanın özünü idarəetmə qabiliyyətini azaldır, impulsları gücləndirir, qəddarlığa yol açır.

Həddindən artıq reaktivlik, əsəbi və aqressivlik kimi davranışları olan bir fərd, narahatedici hadisələrin öhdəsindən gəlmək qabiliyyətinə malik deyil və bu zaman sakitləşmək üçün maddələrin verəcəyini düşündüyü rahatlığı tapmaq istəyi ilə dərman qəbul etməyə başlaya bilər. Cəmiyyətin insanları təcrid etməsi, sevgisizlik qarşısında hiss etdiyi narahatlıq onları narkotikdən istifadə etməyə sövq edir və həyatın ancaq bu yolla öhdəsindən gələ biləcəklərini düşünür. Maddə istifadəsi riski introvert, duyğularını ifadə etməkdə çətinlik çəkən, özünü təsdiq edə bilməyən gənclərdə yüksəkdir. Problem həll etmə bacarığı aşağı olan, impuls və qəzəbini idarə edə bilməyən, streslə mübarizədə çətinlik çəkən, ətraf mühitin təzyiqinə tab gətirə bilməyən insanlar daha yüksək risk qrupundadır. Uğursuz məktəb həyatı ilə yanaşı təhlükəli davranışlar nümayiş etdirən yeniyetmələr narkotikə aludə ola bilirlər [5].

Nümunə: *Əvvəl sakit və mehriban olan gənc travmatik beyin zədəsi alır. Bu zədə onun beynin funksiyalarına təsir edir, emosiyaların idarəsi və impulsların nəzarətini zəiflədir. Həm-çinin, onun hormon balansında dəyişiklik müşa-hidə olunur, testosteron səviyyəsi yüksəlir, sero-tonin səviyyəsi aşağı düşür. Bu bioloji faktorlar onun aqressiv reaksiyalarına meylini artırır. Gənc*

*müəyyən stress vəziyyətlərində mübahisə və ya reaktiv reaksiyalar göstərir. Zaman keç-dikcə bu reaksiyalar daha aqressiv və bəzən fiziki zorakılığa çevrilir.*

**2. Psixoloji amillər**

- Uşaqlıq travmaları: Uşaqlıqda zorakılığa məruz qalmaq, laqeyd valideyn münasibəti, natamam ailələr, istismar sonradan aqressiv, ziyanlı davranışa və ya cinayət qurbanı olma riskinə zəmin yaradır.

İsveçdə sorğu nəticəsində müəyyən edilib ki, 100 qadından yalnız 2 və ya 3-ü öz istəyi ilə fahişəliyə girir. Qadınların çoxu isə bunun əvəzinə onların işini asanlaşdıran və ya tərk etmələrinə mane olan məcburedici amillərə, yəni uşaqlıq zorakılığı, tək analıq və travmaya malikdir [9].

- Empatiya çatışmazlığı: Başqalarının ağrı və iztirablarını hiss edə bilməyən insanlar daha asanlıqla qəddarlıq nümayiş etdirirlər. Tədqiqatlar göstərir ki, psixopatik şəxslərin cinayi davranışlar sərgiləməsində onların zəif empatiya qabiliyyətinin rolu böyükdür.
- Şəxsiyyət pozuntuları. Pozuntulara aid olan xüsusiyyətlər dolayı yolla cinayi və zorakı davranışlara zəmin yaradır.
- Komplekslər və aqressiya: Özünü zəif, uğursuz və ya dəyərsiz hiss edən fərd özünü sübut etmək üçün qəddarlığa meyl göstərə bilər. Qeyd olunan məsələ isə müəyyən qədər Alfred Adlerin natamamlıq psixologiyasından irəli gəlir.
- Stress və emosional gərginlik: Yığılmış qəzəb qəfil partlayışlarla qəddarlığa çevrilə və impulsiv davranışlara səbəb ola bilər.

Cinayətkarın psixoloji əlamətləri içərisin-də aparıcı rolu onun hüquqi şüurunun qüsurları, davranış normaları və sərvət meyillərindəki çatışmazlıqlar, asosial davranış motivlərinin üstünlüyü, eləcə də bir sıra neqativ psixoloji keyfiyyətlər *(impulsivlik, aqresivlik, kəskin emosional oyanıqlıq, intelektual inkişafın aşağı səviyyədə olması, şəxsi sadəlövlük, içkiyə, narkotik maddələrə aludəçilik və s.)* xüsusi yer tutur [1].

Nümunə: *Uşaq valideynlərinin fiziki və psixoloji zorakılığına məruz qalır. Valideyn-lərdən biri çox sərt və laqeyd olur, digəri isə tez-tez əsəbləşir və uşağa qarşı aqressiv davranır. Uşaq bu davranışları normal qarşılayır və özünü müdafiə etmə yollarını öyrənir. Böyü-dükcə, sosial və məktəb mühitində də travma-larının təsirini hiss edir. Kiçik anlaşılmazlıqlar və tənqidlər ona dərhal qəzəb və əsəb reaksiyası doğurur. Bu gənc həmyaşıdları ilə münasibət-lərdə tez-tez münaqişəyə girir və bəzən fiziki zorakılıq göstərir.*

**3. Sosial amillər**

- Ailə mühiti: Uşağın zorakılıq gördüyü ailələrdə böyüməsi, zorakılığı normal davranış kimi qəbul etməsinə zəmin yaradır. Hətta övladın gələcəkdə sağlam şəxsiyyət olaraq formalaşmasında onun ana bətnində olması amili də önəmli yer tutur.

Araşdırmalar göstərir ki, ana bətnində olan uşaq hələ dünyaya gəlməmişdən ətrafda baş verənləri eşitmək qabiliyyətinə malik olur. Ananın vəziyyətinin, əhval-ruhiyyəsinin, emosiyalarının dəyişməsi nəticəsində uşağın inkişafında dəyişikliklər özünü göstərir. Belə ki, psixologiya elmindən də məlum olduğu kimi şüuraltı insanların davranışlarına təsir edir. Buna baxmayaraq bir çox halda insan həmin davranışlarının səbəbi aşkar edə bilmir. Bununla bağlı olaraq aparılan araşdırma maraqlı cavabların tapılmasına səbəb olmuşdur. Araşdırma nəticəsində məlum olmuşdur ki, “ailədə ana hamilə olduğunu dedikdə hələ dünyaya gəlməmiş uşağın atası kasıb olduqlarına görə gileylənmiş, anası da onu abort eləmək haqqında fikirləşmişdi. Uşaq da ana bətnində olarkən bunun fərqinə varmış və bu onun təhtəlşüuruna yazılmışdır. Qeyri-ixtiyari ölmək məcburiyyətində olduğunu, atası tərəfindən istənilmədiyini düşünməyə başlamışdır. Səbəbini heç özü də bilmir. Anası uşağı abort elətdirməsə də ömür boyu uşaq sevgisizliyin, istənilməməyin təsirlərindən qurtula bilməyib [2].

- Mühit və sosial qruplar: Cinayətkar dəstələr, küçə qrupları, radikal təşkilatlar zorakılığı, cinayəti “hörmət qazanma vasitəsi” kimi təqdim edirlər. Tanınmış Kriminoloq Qabriel Tarde qeyd olunan məsələni təqlid qanunları ilə əlaqələndirir.

Təqlid qaydalarının ilk qrupuna insan-ların yaxın əlaqə olduqları insanları təqlid etməsi

aiddir. Müəllif bildirirdi ki, təmasın ən sıx olduğu, yaşayışın aktiv olduğu şəhərlərdə təqlid prosesi tez-tez görülür. Təmasın daha az olduğu və həyat fəaliyyətinin daha az aktiv olduğu yerlərdə isə təqlid daha zəif olur. İkinci qaydaya görə aşağı statuslu şəxslər daha üstün statuslu insanları təqlid edir. Təqlidin üçüncü qaydası isə inkişaf ilə əlaqəlidir. Bir dəyəri əvəz edən daha səmərəli dəyər formalaşdıqda, yeni olan köhnəni əvəz edir [10].

- Sosial bərabərsizlik: Yoxsulluq, işsizlik, sosial ədalətsizlik nifrəti artırır, qisas hissini gücləndirir.

Sosial bərabərsizlik və təbəqələşmənin cinayətkarlığa təsiri yalnız nəzəriyyələr və müşahidələrlə deyil, statistik və empirik tədqiqatlarla da aydın şəkildə təsdiqlənir. Dünyada aparılan araşdırmalar göstərir ki, gəlir fərqi yüksək olan ölkələrdə və regionlarda cinayət nisbətləri daha yüksək olur. Dünya Bankının məlumatlarına görə, gəlir bərabərsizliyi yüksək olan ölkələrdə cinayət nisbətləri orta səviyyədən 2-3 dəfə yüksəkdir [11].

- Mədəniyyət və ideologiya: Bəzi ideologiyalar zorakılığı qəhrəmanlıq və ya müqəddəs məqsəd kimi leqitimləşdirir, media vasitəsilə ziyanlı mədəniyyət cəmiyyətə inteqrasiya edir. Məsələn, İtaliyada məskunlaşan və dünyaca tanınmış Siciliya mafiyasının təqdimatına yönəlmiş filmlər, kitablar və s. onların "müsbət imicinin" tanıdılmasına xidmət edir.
- Kütləvi informasiya vasitələri: Filmlər, oyunlar və sosial mediada zorakılığın ifadə olunması qəddarlığa həssaslığı azaldır.

Media ilə cinayətkarlıq arasında əlaqə mövcuddur. Müsbət olmayan əlaqə isə bir çox zəruri qaydalara əməl edilməməsindən irəli gəlir. Bəzi ədəbiyyatlarda bir sıra əsərlərin cinayətin törədilməsinə kömək edən faktor rolunu oynadığı, təhlükəli qatillərdən bəhs edən, ədəbsiz hekayə və rəsimləri özündə ehtiva edən yayımların, cinayətkarların hərəkətlərini tərif edən əsərlərin cinayət törədilməsinə ciddi şəkildə təsir etdiyi bildirilmişdir. Bu baxımdan gənclərin şəhvət istəklərini təhrik edərək onları pis yollara sürükləyən ədəbsiz nəşrlərə xüsusi diqqət yetirilib. Cinayətkarların hərəkət və hərəkətlərini təqlid etməyə sövq edən hekayə və romanların bəzi insanların müqavimət nöqtələrini sındıraraq cinayətə meyllərini dəstəklədiyi izah edilib [3].

Nümunə: *Gənc yoxsul böyüyür. Ətrafda olan cinayətkar qruplar və küçə dəstələri zora-kılığı hörmət və sosial status qazanma vasitəsi kimi təqdim edir. Gənc həm qrupun təsiri, həm də ətrafdakı sosial bərabərsizlik səbəbindən bu davranışlara meylli olur. Gənc məktəbdə və ya küçədə qarşılaşdığı mübahisələrdə əvvəlcə kiçik münaqişələr göstərir. Daha sonra qrupun təsiri ilə bu davranışları genişləndirir, oğurluq, fiziki zorakılıq və təhdid kimi əməllərə əl atır. Sosial mühit onu davamlı olaraq zorakılığa təşviq edir, çünki belə davranışlar qrupda hörmət qazanmaq və qorunmaq üçün "norma" sayılır.*

**4. Situativ amillər**

- Stressli şərait: Maliyyə sıxıntısı, ailədaxili münaqişələr, işsizlik, ekoloji və arxitektik problemlər zorakı partlayışlara səbəb ola bilər.

Zənginləşdirilmiş mühitlərdən fərqli olaraq, xaotik mühitlər beyində və sağlamlıqda uzunmüddətli mənfi dəyişikliklərə səbəb ola bilər. Şəhərlərdə yaşayan insanlar kənd yerlərində yaşayanlardan daha çox psixi sağlamlıq problemlərinə malikdirlər. Eyni şəkildə şəhər mühitində böyüyən insanlar müxtəlif psixotik pozuntulara, psixopatiya, bipolyar pozuntu və şizofreniyaya daha çox meyllidirlər. Belə nəticələrin mümkün səbəblərindən biri böyük şəhərlərdə əhalinin sıxlığı, sosial izolyasiya, intensiv və gərgin həyat tərzi, psixotrop maddələrdən və alkoqoldan instifadənin geniş yayılması, havanın çirklənməsi, səs kirliliyi və məkan konfiqurasiyası kimi çoxsaylı stress faktorlarının yayılmasıdır. Bu cür ekoloji stress amillərinə uzun müddət məruz qalma insanlar üçün ciddi təhlükə ilə nəticələnə bilər [4].

- Qrup psixologiyası: Kütlə içində fərdi məsuliyyətin itməsi, insanın tək halda etməyəcəyi qəddarlığı qrup içində etməsi. Qeyd olunan məsələ Qustav Le Bonun tədqiqatlarında göstərildiyi kimi insanlarda "Hipnoz effekti" yaradır.
- Müharibə və zorakı konfliktlər: Müharibə şəraitində zorakılıq leqitimləşdirilir və qəddarlıq "normal" davranış kimi qəbul edilir. Eyni zamanda uşaqların izlədiyi zərərli filmlər

də sosial öyrənmə vasitəsilə bu tip davranışları normallaşdırır.

- Cəzasızlıq mühiti: Cəzanın ən önəmli funksiyalarında olan "cəzanın labüdlüyü" funksiyasının pozulması cinayətkarlarda və cinayət törətmək istəyən şəxslərdən rahatlıq hiss yaradır. Nəticədə, bu funksiyanın pozulduğu, qanunun zəif işlədiyi və cinayətkarların cəzasız qaldığı cəmiyyətlərdə qəddarlıq asanlıqla artır.

Nümumə: *Şəxs uzun müddət işsiz qalıb, ailəsi ilə maliyyə problemləri yaşayır. Eyni zamanda ailədaxili münaqişələr və gündəlik stress onu emosional cəhətdən yükləyir. Normal şəraitdə o, sakit və qaydalara əməl edən bir insan olsa da, situativ təzyiqlərin təsiri altında davranışı dəyişir. Bir gün, işsizlik və maliyyə sıxıntısı səbəbindən gənc marketdə növbədə qarşılaşdığı kiçik bir mübahisədə özünü itirir və fiziki aqressiyaya əl atır.*

Beləliklə, insanın mahiyyətinə uyğun olaraq onun tədqiqi hissələrə bölünməlidir. Bu mənada cinayətkarın şəxsiyyətini, xüsusiyyətini öyrənən zaman edilən yanaşma həm də üç qrupda birləşdirilməlidir:

- Bioloji amillər – zamanla tənqidə məruz qalsa da, insanın bioloji mahiyyəti inkar edilə və araşdırma zamanı onun diqqətdən kənar qalması qəbul edilə bilməz. Çox olub ki, insanlar bioloji amillərin təsiri altında və onların təsirlərini idarə edə bilmədikləri üçün cinayət törədiblər.
- Psixoloji amillər *(ruhi və mənəvi xüsusiyyətlər)* – daxili amillər olaraq çıxış edir və xarici "informasiya"nın "qəbul edilməsi"ni təmin edir. Kənar məlumatların təsiri altından psixoloji amillər inkişaf edir, təkmilləşir və özünü müəyyən davranış qaydalarına, fəaliyyətə hazırlayır.
- Sosioloji amillər – sosiumda formalaşan insan həm özü sosiuma təsir edir, həm də sosium eyni qaydada insana təsir edir. Düzgün davranışların sərgiləndiyi sosium insanlara düzgün cavab reaksiyası verir, qeyri-düzgün davranış da isə əksinə. Bu fizikada "təsir əks təsirə bərabərdir" prinsipinə bənzəyir. Lakin, hər bir halda bir çox insan özünü müstəqil hesab edir, buna baxmayaraq sosiumun təsiri altında olduğunu dərk etmir.

Qeyd edilən amillərlə yanaşı şəxsiyyətin tədqiq edilməsi zamanı insanın aşağıdakı əlamətlərə görə də təsnifatı aparılır:

1. Ümumi-sosial səviyyə.

- Yaş, cins, təhsil, peşə, sosial status, ailə vəziyyəti, yaşayış mühiti.
- Sosial-demoqrafik əlamətlər.

Qeyd olunanlar ətraflı izah edək: *Gənc yaşlarda yüksək enerji sayəsində impulsiv davranış və risk alma meyli daha yüksək olur. Bu səbəbdən gənclər arasında vandalizm, küçə davaları və digər kiçik cinayətlər daha çox rast gəlinir. Fiziki zorakılıq və cinsi motivli cinayətlər daha çox kişilər tərəfindən törədilir, qadınlar isə əksər hallarda maliyyə cinayətlərinə və ailədaxili pozuntulara meyllidirlər. Təhsil səviyyəsi aşağı olan şəxslər sosial normaları düzgün qavramaqda çətinlik çəkir. İşsiz, sosial dəstəkdən məhrum və aşağı statuslu insanlar maddi sıxıntılar, sosial təzyiq və stress nəticəsində cinayətkar fəaliyyətlərə yönələ bilirlər. Problemli ailələrdə böyüyən, valideyn nəzarətindən məhrum və ya zorakılıq görmüş uşaqlar böyüdükdə cinayətkarlığa meyilli ola bilər.*

2. Sosial-psixoloji səviyyə.

- Şəxsin dəyərləri, motivləri, həyat mövqeyi, ünsiyyət tərzi, empatiya səviyyəsi.
- Aqressivlik, antisosial meyllər, məsuliyyət hissi.

Bu amilləri izah edək: *Əgər insan şəxsi maraqlarını, qısamüddətli qazancı və hakimiyyəti başqalarının hüquq və maraqlarından üstün tutursa, cinayət törətməyə meyli artır. Məqsədinə çatmaq üçün vasitələrə əhəmiyyət verməyən və ya sosial normaları pozmağı məqsəd hesab edən şəxslər daha çox cinayətkar davranış göstərə bilər. Empatiya çatışmazlığı, başqalarının hisslərini anlamaqda çətinlik çəkir, insanları manipulyasiya etmək və zorakılıqla təhdid etmək ehtimalını yüksəldir. Aqressivlik və antisosial meyllər davranışın zorakılıq və cinayət xarakteri daşımasına səbəb olur. Aşağı məsuliyyət hissi və nəticələrin qəbul edilməməsi, qanun və sosial normalara zidd davranışlara gətirib çıxarır.*

**3. Hüquqi səviyyə**

- Cinayət məsuliyyətinə münasibət, əvvəlki məhkumluq, qanuna hörmət dərəcəsi.

- Cinayətkarın hüquqi statusu və qanun pozuntuları.

*İnsan qanuni nəticələrin ciddi olduğunu qəbul etmirsə, riskli və qanun pozucu davranışlara meylli ola bilər. Təkrar cinayət törədən şəxslərdə hüquqi normalara hörmət azalır. Qanunları ciddi qəbul etməyən, sosial və hüquqi məsuliyyəti aşağı olan insanlar daha tez qanun pozuntuları sərgiləyirlər.*

**4. Fizioloji və psixiatrik səviyyə**

- İrsiyyət, sinir sistemi xüsusiyyətləri, asılılıqlar, psixi sağlamlıq.
- Şəxsin bioloji və tibbi göstəriciləri.

**5. Kriminoloji səviyyə**

- Cinayət davranışına təsir edən səbəb və şərait.
- Cinayətkarın tipologiyası.

Son olaraq qeyd etmək lazımdır ki, cinayətin törədilməsinə kömək edən amillər ümumi mahiyyətinə görə iki formada özünü göstərir:

- Ümumi amillər – insanı cinayətkar olmasına kömək edən amillər hesab edilir. Qeyd edilən amillərin təsiri altından insan cinayət törətməyə də bilər.
- Konkret amillər – bunlar elə hallardır ki, onların təsiri altından insan mütləq cinayət törədir və ya cinayət törədən şəxsdə qeyd edilən amillər mövcud olur. Bu məsələ adətən cinayətin törədildiyi anda məlum ola bilər. Nəticədə, insan cinayətə münasibəti və cinayətin törədilməsinə kömək edən amillər müxtəlif üsullarla *(bioqrafik metod – ümumi amilləri, intervyu – konkret amilləri öyrənməyə kömək edə bilər)* aydınlaşdırılır.

Beləliklə, cinayətkarın şəxsiyyətinin tədqiq edilməsi mürəkkəb xarakter daşıyır və müxtəlif mərhələlərdən, qruplardan, yanaşma formalarından ibarətdir. Qeyd edilən amilləri nəzərə alaraq şəxsiyyətin ətraflı təhlilini aparmaq mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Əkbər, Əliyev Bəxtiyar, Hüquq psixologiyası (dərslik). Bakı, “Təhsil”, 2012, 656 səh
2. Abdullah Aymaz, Ana bətnində uşağın hissiyyatı, https://www.meneviyyat.az/ana-betninde-usagin-hissiyyati/
3. Dönmezer Sulhi, Kriminoloji, Beta Yayınları, 8. baskı, İstanbul 1994
4. Mimarinin insanlar üzerindeki etkileri https://www.kemalarikan.com/mimarinin-insanlar-uzerin-deki-etkileri.html
5. Atalay Bahar, Causes of Drug Use and the Role and Importance of Communicative Approaches during the Addiction Period: A Case Study through Police Records, Article, 36 s.
6. Abdullah Aymaz, Ana bətnində uşağın hissiyyatı, https://www.meneviyyat.az/ana-betninde-usagin-hissiyyati/
7. Dönmezer Sulhi, Kriminoloji, Beta Yayınları, 8. baskı, İstanbul 1994
8. Mimarinin insanlar üzerindeki etkileri https://www.kemalarikan.com/mimarinin-insanlar-uzerin-deki-etkileri.html
9. Atalay Bahar, Causes of Drug Use and the Role and Importance of Communicative Approaches during the Addiction Period: A Case Study through Police Records, Article, 36 s.
10. Engin Üngüren, The Impact of Neuroanatomical and Neurochemical Structure of Brain on Personality and Behavior. Article, 28 page
11. Dugdale, R. L. (Richard Louis), The Jukes 1841-1883, page 120, “purtham”, 1910
12. Roger Hopkins Burke. An Introduction to Criminological Theory, Third Edition. Willan Publishing, 2009, page 425
13. Ane Mathieson vd., “Prostitution Policy: Legalization, Decriminalization and the Nordic Model,” Seattle Journal for Social Justice 14, no. 2 (2015): 368-369; Daniela Danna, “Report on prostitution laws in the European Union,”, University of Milan, 2014, 10-17,
14. Margaret S. Wilson, Pioneers in Criminology - Gabriel Tarde (1843-1904). Journal of Criminal Law and Criminology, 1954
15. https://openknowledge.worldbank.org /server/api/core/bitstreams/8fec5a96-253c-5999-8173-5497a1f87d00/content?utm

**Aferin Ali ABBASOVA**
Western Caspian University

Associate Professor of the Department of Psychology and Social Work, Ph.D. in Psychology
E-mail:aferin.abbasova@wcu.edu.az
E-mai:aferin_2012@hotmail.com
ORCID: 0000-0002-6948-4301

**Yahya Rza ABDULLALI**
Western Caspian University
2nd year master's student of the
E-mail: yehya6319@gmail.com
ORCID: 0009-0003-5072-9035

## LEVELS AND METHODS OF STUDYING THE PERSONALITY OF A CRIMINAL

**Summary**

The study of the personality of a criminal is considered one of the main directions of legal psychology. The personality of a criminal is a special and distinct category, combining various characteristics. The study of these characteristics, in turn, can help identify the psychological factors that contribute to the formation of a criminal, identify the risk factors of a criminal who may form in the future, and prepare preventive measures.

At the same time, in order to determine the characteristics of the criminal's personality, it is first necessary to group the factors influencing the formation of the criminal's personality at certain stages. Otherwise, it may be impossible to approach the issue comprehensively. The study of the mentioned issue is generally carried out at the social, psychological, biological levels. Thus, taking all this into account, the article will analyze the levels and methods of studying the criminal's personality.
**Keywords**: Criminal, personality, psychology, characteristics

**Афарин Али АББАСОВА**
Западно-Каспийский университет
Доцент кафедры психологии и социальной работы, кандидат психологических наук. По психологии
E-mail:aferin.abbasova@wcu.edu.az
E-mai:aferin_2012@hotmail.com
ORCID: 0000-0002-6948-4301

**Яхья Рза АБДУЛЛАЛИ**
магистрант 2-го курса Западно-Каспийского университета
E-mai: yehya6319@gmail.com
ORCID: 0009-0003-5072-9035

## УРОВНИ И МЕТОДЫ ИЗУЧЕНИЯ ЛИЧНОСТИ ПРЕСТУПНИКА

**Резюме**

Изучение личности преступника считается одним из основных направлений юридической психологии. Личность преступника – это особая и самостоятельная категория, объединяющая в себе различные характеристики. Изучение этих характеристик, в свою очередь, может способствовать выявлению психологических факторов, способствующих формированию личности преступника, выявлению факторов риска, которые могут сформироваться в будущем, и разработке профилактических мер.

В то же время, для определения особенностей личности преступника необходимо, прежде всего, сгруппировать факторы, влияющие на формирование личности преступника на отдельных этапах. В противном случае комплексный подход к изучению данного вопроса невозможен. Изучение данной проблемы, как правило, осуществляется на социальном, психологическом и биологическом уровнях. Учитывая всё это, в статье будут проанализированы уровни и методы изучения личности преступника.

**Ключевые слова:** Преступник, личность, психология, особенности

**Daxil olub:** 25.11.2025